BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2006*

# TƏKRARLARIN EKSPRESSİV MƏTNİN YARANMASINDA ROLU

E.C.HƏSƏNOVA*

Subyektin intellektual və emosional sferası nitqdə mühüm yer tutur. Obyektiv informasiyanın ekspressiv ifadəsi nitqi daha aydın və səlis edir, fikrin təsir qüvvəsini artırır. «Ekspressiya üslubi-neytral nitqdən fərqli olaraq fikri daha ifadəli təsvir etməklə ona emosionallıq verir»[1]. Məhz bu səbəbdən ekspressiya nitqin intellektual və emosional sferasını özündə əks etdirir və həmişə subyektiv olur. Ekspressiya dilin çox müxtəlif üslublarında öz ifadəsini tapır. Belə ki, çox müxtəlif üslublarda ekspressiya nitqin təsir qüvvəsini artırmağa xidmət edir. Qeyd etmək lazımdır ki, bu üslubların bəzisində emosiya, bəzilərində isə intellekt dominant ola bilir. Poeziyada emosional stixiya, intellekti üstələyə bilir. Ancaq bu o demək deyildir ki, poeziyada intellekt zəif olur.

Qüvvətli emosional fonda intellekt o qədər də təsirli ola bilir. Bəlkə, intellekt olmasa, emosiya solğun və zəif səslənərdi.

İnformasiyanın ekspressiv ifadəsi çox rəngarəng dil imkanları ilə yaranır. Bədii dildə subyektin psixoloji əhvalını vermək üçün ekspressiv semantikaya malik olan müxtəlif sözlər – sevinc, dəhşət, sevgi, nifrət və s., metoforik cümlələr – canıma qorxu düşdü, burnumun ucu göynəyir, qorxudan tir-tir əsdi və s. kimi vasitələr Azərbaycan dilində kifayət qədərdir. Nidalar, intonasiya, jest də nitqdə həmin semantikanın ifadəsində iştirak edir. Bütün bunlar cümlənin, eləcə də mətnin semantikasına təsir edir və bədii mətnin imkanlarını artırır, obrazın çox müxtəlif psixoloji vəziyyətini-həyəcanını, kədərini, sevincini, nifrətini ifadə etməyə imkan verir. Mətnin ekspressiv təşkilində bu vasitələrin ilk və ya son cümlələrdən birində işlənməsi bütöv mətni belə ekspressiv məna çərçivəsinə sala bilir.

Nəzərə alınmalıdır ki, ekspressiv nitq əvvəldən planlaşdırılmış praqmatik (neytral) dil hadisəsi olmur, obyektin daxili-psixoloji əhvalı ilə əlaqədar olub bəzən gözlənilməz gərginləşmə olur və tədricən bu gərginlik mətn boyu zəifləyə bilir.

Ekspressiv mətnin formalaşmasında mühüm vasitələrdən biri də təkrarlardır. Təkrarlar-xüsusilə də emotiv semantikalı təkrarlar mətndə

* Həsənova Elmira Cəlal qızı – filologiya elmləri namizədi, BDU-nun Azərbaycan dilçiliyi kafedrasının dosenti.

[1] Bax: О.С.Ахманова. Словарь лингвистических терминов. М., «Советская энциклопедия», 1964, с. 524.

ekspressiv gərginliyi qüvvətləndirərək müxtəlif məna çalarları verməklə onların təsir qüvvəsini artırır.

Mətn tərkibində sözlərin təkrarı iki əsas vəzifə daşıyır. Onlardan biri məna üzvlənməsinin ifadəçisi kimi, çox vacib zərurətdən doğur. Bu cür üzvlənmə mətnin kommunikativ açılış istiqamətini müəyyənləşdirir, fikrin qeyri-müəyyəndən müəyyənə doğru açılışına kömək edir, zəncirvarı və paralel üzvlənmədə mühüm rol oynayır.

Digəri isə üslubi funksiya daşıyır. Mətn daxilində təkrarlanan sözü xüsusi aksentlə deməklə diqqəti həmin sözün semantikasına cəlb etmək və mətndə üslubi-semantik münasibət yaratmaq məqsədi daşıyır.

Emotiv sözlərlə başlanan mətn sanki bu semantikaya yönəlir, onların təkrarı bir daha həmin mətnin ekspressiv qüvvəsini artırır.

Ayrılıq! İnsan həyatında ağır möhnət olan ayrılıq bizim də qismətimiz oldu.

Sən bu ayrılığı qabaqcadan hiss etmişdin, sövqi-təbinləmi, nədənmi... ancaq hiss etmişdin.

Ayrılıq nisgili sanki bu mətnin mənasına çöküb. İnsanın ən acı qisməti bu sözün mənasında olduğunu mətndən hiss edirik.

Neytral mənalı sözlərin təkrarı da ekspressiv mətnin formalaşmasında iştirak edir.

Bülbül meşə istəyir. Gül qoxulu bahar sədalı meşə. İstəyincə cəh-cəh vurmaq üçün.

Qartal dağ istəyir. Dörd bir yanı sıldırım qayalı dağ. Qıy vurub ənginlərə şığımaq üçün.

Qağayı dəniz istəyir. Balıq nəfəsli, sahilləri insan ləpirli dəniz. Doyunca süzmək üçün.

Burada «meşə», «dağ», «dəniz» sözlərinin təkrarı ilə bərabər cümlə modellərinin sinonimliyi mətni ritmik və kifayət qədər emosional etmişdir.

Təkrarlanan ekspressiv cümlələrin paralel quruluş tipləri də mətni mütənasib, semantik cəhətdən qüvvətli edir.

Mən düşmənəm sizin qan içində üzən taxtı-tacınıza.
Mən düşmənəm sizin insan əti yeyən ikibaşlı qartalınıza.
Mən düşmənəm sizin süngü və pulemyot üstündə duran hökmranlığınıza.
Mən düşmənəm sizin ikiüzlü, qanlı məhkəmənizə.

C.Cabbarlı

Burada önə çəkilərək vurğulanması cümlə strukturunda müəyyən simmetriya yaratmaqla ekspressiv qüvvəni bir daha qeyd edir. Natiqlik sənətində bu tip cümlələr vasitəsi ilə çox qüvvətli gərginlik yaradan emosional ifadə tərzindən tez-tez istifadə edilir.

Dil faktları göstərir ki, mətndə neytral semantikalı cümlələrin təkrarı özü də qüvvətli ekspressiya yarada bilir:

Qatar gedir...

Hər gün neçə-neçə qatar...Kəndin yaxınlığından keçib gedir...

Budur, qatar gedir, o, əl edir. Ona elə gəlir ki, gedən qatar deyildir, ürəyidir, ürəyi.

Qatar gedir, onun gözdən itməsini, meşəyə girməsini o, necə də is-

təmir. Min milyon dəfə istəmir. Amma qatar gedir, ona məhəl qoymadan onu duymadan, saymadan gedir.

Qatar gedir. O, əl edir, əl edir...

Qatar gedir.

Bu mətndə müxtəlif təkrarlar içində «qatar gedir» cümləsi ekspressiya yaradan vasitələrdən ən vacibidir. Subyektin keçirdiyi daxili həyəcanı ifadə etmək üçün hər hansı emosional semantikalı sözə ehtiyac duyulmur. Təkrarlar onun ayrılıq nisgilini, psixoloji vəziyyətini o qədər inandırıcı verir ki, bu həyəcanı duyur, həmin nisgilin sonsuzluğuna inanırıq.

Mətnin quruluşu da maraqlıdır. Mətndə təkrarlanan fellərin yaratdığı üslubi-semantik münasibətlər - «istəmir», «gedir», «əl edir» fellərinin təkrarı, üslubi cəhətdən rəvan gedir. Həyəcan keçirən insan heç vaxt uzun-uzadı düşüncələrə dalmır. Gərilmiş əsəblər, təkrarlanan qırıq-qırıq pərakəndə fikirlər özünəməxsus cümlə tiplərində ifadəsini tapır. «Qatar gedir»lə – başlanan və qapanan mətn parçasında emosiya əlbət ki, intellekti üstələmiş, hisslər ön plana çəkilmişdir.

Xitabların, xüsusilə bədii xitabların və ara sözlərin təkrarı da cümlə və cümlə üzvlərinin təkrarı effektini verə bilir, belə təkrarlar mətnin formalaşmasında xüsusi priyom kimi çox geniş istifadə edilir, poetik-emosional mətnin yaranmasında mühüm rol oynayır.

«Nə sakitsən, dəniz! Adamsız çöllər kimi qarşıda nə sərilib qalmısan, dəniz? Dalğalan, dəniz, gözəlliyini, dənizliyini göstər.»

(G.Hüseynoğlu)

Təkrarlar ekspressiv mətnin formalaşmasında subyektin psixoloji vəziyyətini – onun sevinc, nigarançılıq, tərəddüd və təlaşını ifadə etməkdə mühüm rol oynamaqla bərabər mətnin semantik bağlılığının yaranmasında da mühüm rol oynayır.


## РОЛЬ ПОВТОРОВ В ФОРМИРОВАНИИ ЭКСПРЕССИИ В ТЕКСТЕ

**Э.Дж.ГАСАНОВА**

**РЕЗЮМЕ**

Экспрессивные выражения объективной информации придают речи выразительность, ясность и четкость, усиливают и выделяют ту или иную мысль.

В азербайджанском языке средства выражения экспрессивности многообразны.

В статье утверждается, что языковые повторы, используемые в тексте, широко распространены почти во всех стилях речи.

Экспрессивные слова и предложения различной семантики придают эмоциональную окраску семантическому содержанию всего текста и, как правило, определяют его смысловые границы.